# Laçın şəhərində rayon prokurorluğunun inzibati binası istifadəyə verilib

**İyunun 22-də Laçın şəhərində rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.**




Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, açılış mərasimində baş prokuror Kamran Əliyev, Baş Prokurorluğun rəhbər heyəti, eləcə də prokurorluğun veteranları iştirak ediblər.

Əvvəlcə mərasim iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun unudulmaz xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbir iştirakçılarına məlumat verilib ki, inzibati binada prokuror, prokuror köməkçiləri və müstəntiqlər üçün otaqlar, dəftərxana və arxiv yaradılıb.

Qeyd edilib ki, bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.

Laçın Rayon Prokurorluğunun yeni inzibati binasında yaradılan şəraitlə tanış olan baş prokuror kollektivə uğurlar arzulayıb.

Baş prokuror bildirib ki, Laçın Rayon Prokurorluğunun Laçın şəhərində inzibati binasının açılışı prokurorluq orqanlarının tarixində mühüm günlərdən biri olmaqla, prokurorluq işçisi kimi hər kəsi sevindirir və prokurorluq orqanlarının tarixinə qızıl hərflərlə yazılacaq.

Qeyd olunub ki, inzibati binanın açılışı edilən ilk dövlət orqanlarından biri olması, prokurorluq orqanlarının fəaliyyəti üçün yaradılmış yüksək şərait prokurorluq orqanlarının dövlət orqanları sistemində yüksək yerini göstərməklə, həm də dövlətimizin başçısı tərəfindən prokurorluğa göstərilən etimad və qayğının sübutudur.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanlarının ənənəvi tarixi fəaliyyəti, dövlət başçısının həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə sadiqliyi, bu siyasətə yüksək dəstəyi əminlik yaradır ki, prokurorluq orqanları işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Laçın rayonunda hüquq qaydasının təmin edilməsi və möhkəmləndirilməsi, insan və vətəndaşların hüquq və azadlıqlarının qorunması, cinayətkarlıqla mübarizə üzrə digər orqanlarla əlaqəli şəkildə fəaliyyətini bundan sonra da yüksək səviyyədə yerinə yetirməklə, göstərilən etimadı daha da layiqincə doğrultmağa, qarşıya qoyulmuş vəzifələrin öhdəsindən tam şəkildə gəlməyə davam edəcək.

Prokurorluq əməkdaşlarının xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq ifadə olunub.

Azərbaycan. - 2023.-23 iyun.- S.8.